

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 134 (21.035)

*16 iyul 2014-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## *Rəsmi xronika*



İyulun 14-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin strateji səviyyəyə qalxdığı bildirildi, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu qeyd edildi. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi vurğulandı. Azərbaycan-İtaliya əlaqələrinin Avropa İttifaqı ilə əməkdaşlıq baxımından əhəmiyyəti qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

İyulun 14-də Romada Azərbaycan-İtaliya sənədlərinin imzalanması mərasimi olmuşdur.

* * *

İyulun 14-də Romada İtaliya Respublikasının Baş naziri Matteo Renzinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə şam yeməyi verilmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyaya rəsmi səfəri çərçivəsində iyulun 15-də Romada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Joze Qratsiano da Silva ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına rəsmi səfəri iyulun 15-də başa çatıb. Romanın Beynəlxalq Hava Limanında dövlətimizin başçısını İtaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola salıblar.

# Naxçıvanda iftar mərasimi keçirilmişdir





İyulun 14-də Naxçıvan şəhərindəki "Təbriz" restoranında iftar süfrəsi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iftar mərasimində çıxış edərək demişdir: "Bu gün sizinlə müqəddəs bir gündə – mübarək Ramazan ayında görüşürük. Bu ayın fəzilətləri çoxdur. Onlardan biri də ilahi düşüncə və müdriklik xəzinəsi olan müqəddəs "Qurani-Kərim"in bu ayda tamamlanmasıdır. Ramazan ayı insanlara əxlaqi saflıq, xeyirxah niyyətlər aşılayır. Bu ayın mənəvi zənginlikləri Azərbaycan xalqı tərəfindən yüksək tutulmuşdur. Ona görə ki, bizim xalqımız da daim xeyirxah niyyətlər ardınca getmiş, böyük mədəniyyət yaratmış, qədim sivilizasiyaya zəngin mənəvi dəyərlər bəxş etmişdir".

Qeyd olunmuşdur ki, hər bir xalqın mənəvi yüksəlişi onun əsrlər boyu formalaşdırdığı milli və mənəvi dəyərlərə bağlılığı ilə ölçülür. Buna görədir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, eləcə də İslamın müqəddəs ayin və mərasimlərinin qeyd edilməsinə xüsusi diqqət yetirilir. Oruc tutan hər bir müsəlman dinimiz qarşısında öz borcunu yerinə yetirir. Ramazan ayında tutulan oruc insanın paklığına, iman və iradəsinin saflaşmasına xidmət edir.



Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə gəlişinin 45-ci ildönümündə keçirilən iftar mərasimində dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad etmiş, çıxışını ulu öndərin müdrik kəlamları ilə tamamlamışdır: ***"Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dinimənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adətənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".***

Sonra mərasimdə "Qurani-Kərim"dən ayələr oxunmuş, dualar səslənmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində, Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzində, Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində, Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicə alan xəstələrə və gecə növbəsində çalışan işçilərə də iftar süfrələri açılmış, ümumilikdə, iftar mərasimlərində min nəfərdən artıq insan iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 45-ci ildönümü qeyd olunub. Bu münasibətlə komitədə fəaliyyət göstərən "Heydər Əliyev lektoriyası"nın iyul ayının 14-də növbəti məşğələsi keçirilib.***

Sayca on səkkizinci məşğələni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri və rolu olduğunu deyib.

Vurğulanıb ki, xalq və dövlət naminə gərgin, qətiyyətli, fədakar və yorulmaz fəaliyyət dövlətçilik tariximizdə yeganə şəxsiyyəti – xalqımızın böyük oğlu Heydər Əliyevi Azərbaycan xalqının ümummilli lideri səviyyəsinə yüksəldib. Dahi şəxsiyyət Azərbaycanda siyasi hakimiyyətə gəlməklə milli inkişaf platformasını gerçəkləşdirməyə müvəffəq olub ki, bu da, öz növbəsində, Azərbaycanı dövlət müstəqilliyinə hazırlamaq idi. Komitə sədrinin sözlərinə görə, yaşadığımız bu firavan günlərin, neçə-neçə aydın səhərlərin, əbədi və dönməz müstəqilliyin təməli məhz o illərdə qoyulub.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov qeyd edib ki, 14 iyul tarixi Azərbaycanın həyatında ona görə dönüş günüdür ki, o gündən Azərbaycanda Heydər Əliyev yolu başlayıb. Azərbaycan Heydər Əliyev yolu ilə tanınıb, inkişaf edib, azad və müstəqil olub. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan sanki yenidən doğulub. Bu mənada ulu öndər Heydər Əliyevin respublikamıza birinci dəfə rəhbərlik etdiyi dövr – 1969-1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə düşüb.

Bildirilib ki, dahi rəhbər Heydər Əliyev iki bir-birinə zidd olan quruluşda – sosializm və kapitalizmdə Azərbaycanı məharətlə idarə etməyi bacarıb. Müqayisə aparsaq, görərik ki, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə iqtisadiyyatın artım tempinə görə o vaxt SSRİ respublikaları arasında qabaqcıl mövqeyə çıxan Azərbaycan məhz bu gün dünyada ən sürətli inkişaf edən iqtisadiyyata malik ölkə kimi tanınır. Və ən önəmlisi də odur ki, bu inkişaf, bu yüksəliş istər o dövrdə, istərsə də sonrakı illərdə və indi də həyatımızın bütün sahələrində özünü göstərməkdədir.

"Heydər Əliyev zirvəsi" mövzusunda məruzə ilə çıxış edən komitənin Kadrlar şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Bağır Əzimov qeyd edib ki, Azərbaycan deyəndə göz önündə əzəmətli, əlçatmaz bir zirvə – Heydər Əliyev zirvəsi ucalır. Bu zirvə dünyanın hər yerindən görünür. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın ucalığıdır, əzəmətidir, vüqarıdır.

Tədbirə yekun vuran komitə sədri bir daha vurğulayıb ki, illər ötdükcə ulu öndər Heydər Əliyevin böyüklüyü daha dərindən dərk edilir. Ümummilli liderimizin zəngin irsinə dərin ehtiram, siyasi xəttinə dönməz sədaqət daha uğurlu nəticələrə, işıqlı gələcəyə yol açır.

Sonda tədbir iştirakçıları "Ulu torpaq, ulu öndər"adlı filmə baxıblar.

**Xəbərlər şöbəsi**

# Cari ilin ilk 6 ayının yekunları müzakirə edilir



*2014-cü ilin birinci yarısının yekunları ilə əlaqədar dünən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində iclas keçirilmişdir.*

İclasda idarənin sədri Səbuhi Məmmədov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2014-cü il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 94 milyon 400 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 186 min manat, uzunmüddətli kredit qoyuluşu isə 80 milyon 214 min manat təşkil etmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublika əhalisinə verilmiş 11 milyon 815 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 3 milyon 835 min manat məbləğində verilmiş ipoteka kreditləri, 2 milyon 301 min manat məbləğində avtomobil kreditləri vasitəsilə vətəndaşların rifahının yüksəldilməsi ilə bərabər, real sektor da dəstəklənmişdir.

Bank və kredit təşkilatları tərəfindən 2014-cü ilin ilk 6 ayı ərzində 28 milyon 626 min manat kredit verilmişdir ki, bunun da 9 milyon 749 min manatı qısamüddətli, 18 milyon 877 min manatı isə uzunmüddətli kreditlər olmuşdur.

Cari ilin 6 ayı ərzində verilmiş kreditlərin 29,4 faizindən çoxunu – 8 milyon 404 min manatını kənd təsərrüfatı kreditləri təşkil etmişdir.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. Banklar tərəfindən 2014-cü ilin ilk 6 ayı ərzində 2218 hüquqi, 27827 fiziki şəxs olmaqla, 30045 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 27124-ü işlək hesab olmuşdur ki, onların 1295-i hüquqi, 25829-u fiziki şəxsdir.

2014-cü ilin yanvar-iyun ayları ərzində 70 hüquqi, 9696 fiziki şəxs olmaqla, 9766 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 9711-i fəaliyyət göstərir ki, onların 70-i hüquqi, 9641-i fiziki şəxsdir.

Səbuhi Məmmədov demişdir ki, 2014-cü ilin ilk 6 ayı ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 247 milyon 734 min manat nağd pul dövriyyəyə buraxılmışdır. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 20 milyon 592 min manat və ya 7,7 faiz azdır. Bu isə onu göstərir ki, muxtar respublikada fəaliyyət göstərən bankların kassasına daxil olan nağd pulun həcmi artmış, xidmət olunan müəssisə və təşkilatların nağd pula olan tələbatı isə azalmışdır.

Bildirilmişdir ki, vətəndaşlar tərəfindən kommunal xərclərin ödəniş kartları vasitəsilə ödənilməsinin həyata keçirilməsi məqsədilə 2014-cü ilin ilk 6 ayı ərzində 398 ədəd, o cümlədən "Naxçıvanqaz" İstehsalat Birliyində 39 ədəd, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində 12 ədəd, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi qurumlarında 10 ədəd POS-terminal quraşdırılmışdır. Bu dövrdə POS-terminal və digər ödəniş sistemləri vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 3 milyon 769 min manat olmuşdur.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, elektron ödəniş vasitəsilə dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 iyul 2014-cü il tarixə onların sayı 646 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 459 ədəd artmışdır.

Qeyd olunmuşdur ki, muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 173 min 378 idisə, hazırda elektron ödəniş kartı alanların ümumi sayı 193 min 696-ya çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 min 318 ədəd artmışdır.

2014-cü ilin birinci yarısında "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhər, Şərur və Culfa rayon filialları yaradılmış, hal-hazırda həmin filiallar vasitəsilə vətəndaşlara yüksək səviyyəli bank xidməti göstərilir.

Sonra məruzə ətrafında muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları rəhbərlərinin çıxışları olmuşdur.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində də 2014-cü ilin birinci yarısının yekunları ilə bağlı iclas keçirilmişdir. İclasda agentliyin Baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirmişdir ki, 2014-cü ilin yanvar-iyun ayları ərzində muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 2722,6 min manat olmuşdur. Bu da bir il öncəki müvafiq göstəricidən 235,5 min manat və ya 9,5 faiz çoxdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə həyat sığortasında 16,1 faiz, qeyri-həyat sığortasında isə 8,5 faiz artım əldə olunmuş, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqavilələrində 646, daşınmaz əmlakın icbari sığortası üzrə müqavilələrdə 678, fərdi qəza sığortası üzrə bağlanmış müqavilələrin sayında isə 1096 ədəd artım olmuşdur. Sığorta sahəsində maarifçiliyin gücləndirilməsi, əhalinin sığortaya olan etibarının artırılması istiqamətində tədbirlərin davamlılığı təmin olunmuş, muxtar respublikanın bütün rayonlarında sığorta işinin vəziyyəti müzakirə edilmiş, Naxçıvan Dövlət Universitetində maarifləndirici tədbir keçirilmişdir, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta ilə əlaqədar müntəzəm



tədbirlər aparılmış, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortaya cəlb olunması məqsədilə Dövlət Yol Polisi əməkdaşları ilə birgə reydlər keçirilmişdir. Ötən müddət ərzində müxtəlif bədbəxt hadisələr nəticəsində zərərçəkmiş sığortalı vətəndaşlara dəymiş zərərlər ödənilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayon dövlət sığorta agentliklərinin direktorları çıxış edərək cari ilin ilk yarısında qarşıya qoyulmuş vəzifələrin icrası barədə məlumat vermiş, sığorta xidmətinin səviyyəsinin yüksəldilməsi üçün verilmiş tapşırıqları səylə yerinə yetirəcəklərini bildirmişlər. Aparılan müzakirələrdə sığorta işini zəif təşkil etmiş agentliklərə 2014-cü ilin ikinci yarısında işlərində dönüş yaratmaları tövsiyə edilmişdir.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov yekun vurmuşdur.

*İyulun 15-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrə və cari ilin ilk 6 ayının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında mədəniyyət və turizm naziri Sarvan İbrahimov məruzə ilə çıxış etmişdir.*



Bildirilmişdir ki, hesabat dövründə mədəniyyət müəssisələri, turizm obyektləri üzərlərinə düşən vəzifələri ardıcıl olaraq yerinə yetirməklə əhalinin artan mənəvi tələbatının daha dolğun ödənilməsinə çalışmış, milli dəyərlərimizi özündə yaşadan maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılması, milli adət-ənənələrin təbliği istiqamətində müvafiq tədbirlər həyata keçirmişlər. Birinci yarımildə mədəniyyət müəssisələrində "Muxtariyyət ili" ilə bağlı elmi-nəzəri konfranslar, sərgilər, kitab təqdimatları, oxucu konfransları, ədəbi-bədii gecələr keçirilmişdir.

Nazir bildirmişdir ki, 2014-cü ilin ilk 6 ayında konsert-tamaşa müəssisələrinin fəaliyyəti milli dəyərlərin təbliği istiqamətində qurulmuşdur. Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupu, vokalistlər və musiqiçilərdən ibarət 12 nəfər üzvü, o cümlədən Şərur Xalq Yallı Ansamblı Polşa Respublikasının Krakov şəhərində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə keçirilən tədbirdə konsert proqramı ilə çıxış etmişlər.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının fəaliyyətindən də bəhs edən Sarvan İbrahimov bildirmişdir ki, yarımildə teatr yazıçı-dramaturq Əli Əmirlinin "Ağa Məhəmməd şah Qacar" ikihissəli tarixi dramını, şair-dramaturq Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" əsərini və Norveç dramaturqu Henrik İbsenin "Kuklalar evi" psixoloji dramını səhnələşdirərək tamaşaçılara təqdim etmişdir.

"M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının kollektivi ötən dövr ərzində repertuarında olan tamaşalarla muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində məktəblilər qarşısında çıxışlar etmişdir", – deyən nazir vurğulamışdır ki, teatr Tacikistanda keçirilən "Kuklaların fantaziyası" IV Beynəlxalq Kukla Teatrları Festivalında "Arşın mal alan" tamaşası ilə iştirak etmişdir.

Nazirin sözlərinə görə, cari ilin ilk 6 ayında Babək Rayon Xalq Teatrında B.Vahabzadənin "İkinci səs" əsəri səhnələşdirilərək rayon ictimaiyyətinə təqdim olunmuşdur. Hazırda Şahbuz Rayon Xalq Teatrı Ü.Hacıbəylinin "O olmasın, bu olsun" tamaşasını hazırlayır.

"Muxtariyyət ili"nin birinci yarısında muxtar respublikada muzey fəaliyyətinin canlandırılması sahəsində əməli işlər görüldüyünü deyən məruzəçi muzeylərdə müvafiq mövzularda açıq dərslərin keçilməsinin ənənə halını aldığını bildirmişdir.

Ötən 6 ay ərzində turizm sahəsində görülən işlərdən də bəhs edən nazir vurğulamışdır ki, bu ilin aprel ayında Bakıda keçirilən və 35-dən çox ölkənin 260-a yaxın turizm şirkətinin iştirak etdiyi Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisində Naxçıvan Muxtar Respublikası da təmsil olunmuşdur.

Sonra Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Fizuli Hüseynlinin, Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sabiq İmanovun, Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru Rza Xudiyevin, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimovun və M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanovanın çıxışları olmuşdur.

* * *

*Kəngərli Rayon İcra Hakimiyyətində 2014-cü ilin birinci yarısında Kəngərli rayonunun sosial-iqtisadi inkişafının yekunları və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasından irəli gələn vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir.*

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov müşavirədə məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, hesabat dövrü ərzində rayon mərkəzi xəstəxanası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmiş, xəstəxanada tibbi xidmətin yüksək səviyyədə təşkili olunması üçün hər cür şərait yaradılmış, yeni tibbi avadanlıqlar quraşdırılmışdır.

"Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsi, bu sahədə səmərəliliyin artırılması istiqamətində rayonda məqsədyönlü tədbirlər həyata keçirilmişdir", – deyən icra başçısı diqqətə çatdırmışdır ki, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" digər bölgələrdə olduğu kimi, Kəngərli rayonunda da aqrar sahənin intensiv inkişafına, məhsul istehsalının artırılmasına əsaslı şərait yaratmışdır.

İcra başçısının sözlərinə görə, rayon iqtisadiyyatının əsasını təşkil edən və əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafı məqsədilə şəxsi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadə edilməsinə göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artmış, bu ilin məhsulu üçün 3230 hektar sahədə payızlıq taxıl əkini keçirilmiş, cari ilin yazında 1047 hektar sahədə yazlıq arpa əkilmiş, ümumilikdə isə 4277 hektar sahədə taxıl əkini aparılmışdır. Bu da ötən ildəkindən 408 hektar çoxdur. Həmçinin cari ildə 214 hektar sahədə kartof, 293 hektar sahədə tərəvəz, 321 hektar sahədə paxlalı, 98 hektar sahədə qarğıdalı, 113 hektar sahədə günəbaxan, 179 hektar sahədə isə bostan bitkiləri əkilmişdir.

Sonra məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Hacırəddin Mehbalıyevin, Statistika İdarəsinin rəisi Tahir Məmmədovun çıxışları olmuşdur.

Müşavirəyə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov yekun vurmuşdur.

* * *

*"Naxçıvanqaz" İstehsalat Birliyində 2014-cü ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə dair yığıncaq keçirilmişdir.*

Yığıncaqda birliyin direktoru Ramin İsmayılov məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, muxtar respublikada, ümumilikdə, 1 iyul 2014-cü il tarixə 83 min 214 istehlakçı təbii qazdan istifadə etmişdir ki, onlardan 525 abonent, 106 müəssisə cari ilin birinci yarısında təbii qazla təmin olunmuşdur. Abonentlərin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlığın vaxtında aradan qaldırılması üçün "Naxçıvanqaz" İstehsalat Birliyi və onun tabeliyində olan şəhər və rayon Qaz İstismarı idarələri tərəfindən kompleks tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, 2014-cü ilin ilk 6 ayında qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə, qaztənzimləyici qurğu və avadanlıqlara texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilmiş və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılmışdır. Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təxirəsalınmaz işlər görülmüş, sızmaların aradan qaldırılması üçün təmir-bərpa işləri aparılmışdır.

Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilmiş, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir olunmuş, 14 min 511 ədəd sayğac yenisi ilə əvəzlənmişdir.

"Sərf olunan qazın dəyərinin vaxtında və nağdsız hesablaşmalar vasitəsilə ödənilməsi də diqqət mərkəzində saxlanılmışdır", – deyən birliyin direktoru bildirmişdir ki, POS-terminallardan və onlayn ödəmədən kütləvi istifadə üçün abonentlər arasında maarifləndirmə işləri aparılmışdır. Ümumilikdə, 2014-cü ilin birinci yarısında enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 106 milyon 173 min 583 kubmetr qazın satışından 9 milyon 802 min 624 manat vəsait toplanmış, ödəmə 92,3 faiz olmuşdur. Əhali abunəçiləri üzrə istehlak olunan 63 milyon 462 min 820 kubmetr qazın satışından toplanan vəsait 5 milyon 713 min 531 manata çatmışdır ki, bu da 90 faiz ödəmə deməkdir.

İclasda işdə buraxılan nöqsan və çatışmazlıqlara da toxunulmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi

*Pakistanın diplomatik çevrələrində böyük nüfuza malik ingilis dilli “Diplomatik star” jurnalında jurnalın baş redaktoru Raca Mahmud Battinin “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi” adlı məqaləsi dərc edilmişdir.*



Bu il “Bəşəriyyətin beşiyi” adlandırılan Naxçıvanda muxtar respublikanın yaradılmasının 90 illik yubileyi qeyd olunur. 5,5 min kvadratkilometr əraziyə və 435 min 400 nəfər əhaliyə malik olan muxtar respublika Azərbaycan Respublikasının dənizə çıxışı olmayan eksklavıdır. Naxçıvan Muxtar Respublikası Ermənistan, İran və Türkiyə ilə həmsərhəddir. Sovet rəhbərliyi tərəfindən 1920-ci ildə qədim Azərbaycan torpağı olan Zəngəzurun qeyri-qanuni olaraq Ermənistana verilməsi nəticəsində Araz çayına doğru 44-45 km məsafədə yaranmış torpaq zolağı Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırır.

Naxçıvanda 1162 tarixi-mədəni abidə mövcuddur ki, onların 58-i dünya əhəmiyyətlidir. Qazançı qalası, Əshabi-Kəhf, Əlincəqala, Gəmiqaya abidələri, Nuh, Möminə xatın, Gülüstan türbələri və digərləri bu cür abidələrdəndir.

16-cı əsrdə Səfəvilər dövlətinin bir parçası olmuş bu diyar rus-İran müharibələrindən sonra 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinin nəticəsi olaraq Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. Çar Rusiyası dağıldıqdan sonra isə 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi olmuşdur. Birinci Dünya müharibəsi nəticəsində Rusiya imperiyasının dağılmasından bəhrələnmək istəyən ermənilər qonşularının torpaqlarını zəbt etməyə, dəfələrlə Naxçıvanı işğal etməyə cəhd göstərmişlər. Yalnız naxçıvanlıların şücaəti və Türkiyənin yardımı nəticəsində ermənilərin bu məkrli planları puç olmuşdur.

1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra həmin il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bektaşi Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri N.Nərimanova məktub yazaraq deyirdi: “...Naxçıvan özünü Azərbaycan Sovet Respublikasının ayrılmaz tərkib hissəsi hesab edir”.

20-ci əsrin sonlarında Naxçıvan Muxtar Respublikası Sovet İttifaqı süquta uğradıqdan sonra yenidən ermənilərin hədəfinə tuş gəlmişdir. Ermənilər siyasi xaosdan və mərkəzi sovet hökumətinin dəstəyindən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə çalışmışlar. Beləliklə, Azərbaycan Respublikası yenidən Naxçıvan və Qarabağa yönəlmiş erməni terroru və işğalı ilə üz-üzə qalmışdır. Ermənistan tərəfindən tətbiq olunmuş blokada nəticəsində muxtar respublika çox çətin bir duruma düşmüşdür.

Yalnız ümummilli lider Heydər Əliyev Naxçıvana başçılıq etdikdən sonra muxtar respublikanın təhlükəsizliyi təmin olunmuşdur. Eyni zamanda Naxçıvanda ilk dəfə Azərbaycan milli dövlət rəmzləri qəbul edilmiş, “Sovet Sosialist” ifadəsi muxtar respublikanın adından çıxarılmış, kommunist partiyasının fəaliyyəti dayandırılmış, SSRİ-nin tərkibində qalmaq barəsində referendumun keçirilməsi təklifi rədd edilmişdir.

Bütün bunlarla yanaşı, ilk dəfə məhz Naxçıvanda Azərbaycanın üçrəngli bayrağı ucaldılmış, sovet qoşunları regiondan çıxarılmış, dövlət quruculuğu istiqamətində əməli işlər görülmüş, aqrar islahatlar keçirilmiş, Ermənistanın təcavüzünün qarşısı alınaraq muxtar respublikanın təhlükəsizliyi təmin edilmiş, qonşu Türkiyə və İran ilə iqtisadi əlaqələr yaradılmışdır.

Bu gün Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası yüksək templə inkişaf edir, çiçəklənir. 2013-cü ildə dünyanın 800-dən artıq görkəmli nümayəndəsinin cəlb olunduğu Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi hissəsindən sonra forumun iştirakçısı kimi digər qonaqlarla birgə Naxçıvana səfər etmək və bu diyarın gözəlliyi ilə tanış olmaq imkanı qazandım. Səfər zamanı Naxçıvandakı muzeylər, tarixi abidələr, teatrlar, saraylar, məscidlərlə tanış oldum. Hər bir müsəlmanın qəlbində xüsusi yer tutan Əshabi-Kəhf dini abidə kompleksini ziyarətim xatirəmdə daim qalacaq.

**Raca Mahmud Batti**
***“Diplomatik star” jurnalı***

# Qədim kəndin yeni növrağı

***...Avtomobillərin səs-küyü, işıqforların yaşıl işığını gözləmək, işlərinə gecikməmək üçün tələsən adamların xəfifcə həyacanlı görünən üzləri, ictimai nəqliyyat dayanacaqlarında tez-tez saata baxaraq avtobus gözləyən insanlar. Artıq onlar arxada qalır. Şəhərin səs-küyündən uzaqlaşaraq yola düşürük. Gedəcəyimiz ünvana çatana kimi yol boyu düşünürdüm ki, ötən illər ərzində Naxçıvanda insanlar ağır şəraitdə fədakarcasına çalışıblar. Blokadanın çətinliklərinə baxmayaraq, naxçıvanlılar həmişə qurub-yaradıblar, öz torpaqlarını qoruyublar. İşıqsız da qalıblar, yandırmağa yanacaq da tapmayıblar, çörəklə imtahana da çəkiliblər, ancaq bütün bu çətinliklərə dözərək hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına ümidlərini itirməyiblər.***

Müstəqil Azərbaycanın qurucusu və yaradıcısı ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda çıraq işığında qəbul etdiyi qərarların qədim Naxçıvanı nura boyayacağına inanıblar. Qovuşduğumuz bu xoş günlərin işığında dönüb o illərə baxanda ötən müddət ərzində sürətli inkişaf yolu keçən, gözəlləşən, müasirləşən muxtar respublikamızla qürur duyuruq.

...Peşəmizlə əlaqədar kənd yaşayış məntəqələrində oluruq, Azərbaycan kəndinin bugünkü həyatını oxucularımızla bölüşürük. Xüsusi vurğulamalıyam ki, sərhəd kəndlərimizdə olanda bir ayrı hisslərə qapılır insan. Düşmənlə sərhəddə yerləşən kəndlərimizdə olanda üzərimizə bir həssaslıq çökür sanki. Sərhəd kəndlərində yaşayanları bu torpağın əsgərləri deyə adlandırsaq, yerinə düşər. Çünki onlar şəhər və rayon mərkəzlərindən kilometrlərlə uzaqda olan torpaqlarımızı əkib-becərməklə yanaşı, həm də qoruyurlar.

Budur, Zəngəzur silsiləsində məğrur dayanan Culfa rayonunun Ləkətağ kəndinə çatırıq. Əlincəçay sahilində yerləşən Ləkətağın yeni görkəmindən, nikbinlik doğuran növrağından verəcəyimiz xoş xəbərlər qəzetimizin doğma yurdun çiçəklənməsindən fərəh hissi keçirən bütün oxucularının sevincinə sevinc payı qatacaq. Qeyd edək ki, Ləkətağ dəniz səviyyəsindən nə az, nə çox, düz 2350 metr yüksəklikdə yerləşir. Tarixi isə çox qədimlərə dayanır. Kəndin girəcəyindəki e.ə. I minilliyin əvvəllərinə aid olduğu ehtimal edilən Ləkətağ nekropolu kəndin qədimliyindən xəbər verir.

Deyirlər, torpaq qorunmursa, becərməyə, becərilmirsə, qorumağa dəyməz. Bayat elli, hikmət sözlü Qorqud atamızın bu müdrik sözlərini ləkətağlılar əməldə doğruldurlar. Torpağı qoruduqları kimi, əkib-becərməyi də bacarır, gün-güzəranlarını yaxşılaşdırırlar. Kənddə müşahidələr apararkən həyatında boş dayanan kəndli görmədik. Havanın isti olmasına baxmayaraq, kimisi bağında meyvəsini toplayır, kimisi torpağını becərirdi.

Ləkətağ kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Tural Qafarov bildirdi ki, kənddə 72 evdə 500-dən yuxarı insan yaşayır. Təsərrüfatların sayı isə 121-ə çatıb. Ləkətağda heyvandarlığın, arıçılığın inkişafı üçün imkanlar genişdir. Kənddə 499 baş iribuynuzlu, 4400 baş xırdabuynuzlu heyvan bəslənilir. Meyvəçilikdən xeyli gəlir götürən torpaq mülkiyyətçiləri də az deyildir.

Kənddə arı ailələrinin sayı 729-a çatıb. Ötən il hər arı ailəsindən 5 kiloqrama qədər məhsul götürən arıçılar bu sahənin daha da inkişaf etdirilməsində maraqlıdırlar. Bu il





daha çox məhsul əldə etmək əzmi ilə səy göstərən mülkiyyətçilər arı ailələrini dağ yamaclarına çıxarıblar. Eynalı Məmmədov bu sahəni çox gözəl bilir. 50-dən artıq arı ailəsi saxlayır.

Kəndlə tanış olarkən bir meyvə bağı diqqətimizi çəkdi. Bu bağ Aslan Quliyevə məxsusdur. Böyük bir bağ salıb. Artıq bəhrəsini də görür.

Bir məsələni də deyim ki, kənddə dolanışıq təkcə təsərrüfat hesabına deyil. Demək olar ki, hər ailə dövlətdən məvacib alır. Başqa sözlə, kimi icra nümayəndəliyində, kimi bələdiyyədə, kimi məktəbdə, kimi mədəniyyət evində, kimi kitabxanada, kimi həkim ambulatoriyasında işləyir, kimi isə pensiya alır.

Kəndin sağ və sol səmtində sıralanan zirvəli dağlar, qayalar, lap yaxınlığından səs-küylə axan Kolanısu və Dəmirli çayları bu qədim yaşayış məntəqəsinə əsrarəngiz bir gözəllik verir; insanı ruhlandırır, onda yaşayıb-yaratmaq həvəsi yaradır. Kənddə yaşı 70-i haqlamış insanlara rast gəldim ki, onlar şəxsi təsərrüfatlarında çalışmaqdan da qalmırlar. Həmin ağsaqqallardan Heydər Quliyevlə söhbət zamanı bu yaşda bu qədər zirək və sağlam olmasının səbəbini soruşuram:

– Zəhmətdən çəkinməmişəm, işləməkdən qorxmamışam, halallıqla yaşamağı hər şeydən üstün tutmuşam. Həmişə xeyirli vərdişlərdən yapışmışam. Çünki insan üçün xeyirli vərdişlər sağlam, uzunömürlü həyat sürməyin başlıca şərtlərindəndir. Diyarımızın gözəlliklər məskəninə çevrilməsi məni çox sevindirir. Bəzən Naxçıvan şəhərinə, kəndlərimizə yolum düşür. Baxıram, ürəyim açılır. Bu da bizi yaşlı insanların ömrünə ömür calayır.

El ağsaqqallarından Tağı Əliyevlə söhbətləşirik:

– Kəndimiz əvvəlki kənd deyil. Daha da gözəlləşir. Yollarımıza baxın. Əvvəllər bu yollarda heç piyada da yeriyə bilmirdi. Uçuq-sökük və yöndəmsiz yaşayış evləri, sosial binalar kəndimizdə cansıxıcı bir mənzərə yaratmışdı. Görkəmindən bəlli olurdu ki, bu kənddə yaşayanlar ağır güzəran keçirirlər. Kənddə kitabxana, klub, həkim məntəqəsi, ticarət binası, bir sözlə, sosial obyektlər yox dərəcəsində idi. İndi vəziyyət tamamilə dəyişib. Kəndli öz torpağının sahibinə çevrilib, əkib-becərir. Biz ləkətağlılar nail olduğumuz bu günlərlə fəxr edirik. Qürur duyuruq ki, Naxçıvanın belə bir müasir kəndində yaşayırıq. Burada tikilənlər, qurulanlar bizim, gələcək nəslin sərvətidir. Bir addımlığımızda düşmənlər var. Amma çox rahatıq. Çünki bizi qoruyan ordumuz var. Dövlətimizə, ordumuza çox güvənirik.

Digər el ağsaqqalı Rəşid Hacıyevin dediklərindən:

– Torpaq deyəndə kənd yada düşür, əkinçi deyəndə kəndli. Torpaq əbədi sərvət mənbəyimizdirsə, kəndli də əbədi olaraq nemət yetişdirəndir. Gərək kəndli olmağı bacarasan. Bunun üçün zəhmətə qatlaşmalısan.

Bəli, bu gün ləkətağlılar hünərlə, cəsarətlə qurub-yaradırlar. Ocaqlarını daha gur yandırıb düşmənə gözdağı verirlər. “Yurdsevərlik, vətənpərvərlik görmək istəyən Ləkətağa gəlsin. Sözdə vətən-vətən deyənlər, görülən işlərə qara yaxanlar gəlib bu sərhəd bölgəsində həyata keçirilən tədbirlərə baxsınlar” – bu sözləri görüşdüyüm bütün ləkətağlıların dilindən eşitdim.

Bu kənddə yaşamaq üçün dövlətimiz hər cür şərait yaradıb. Qazı, daimi elektrik enerjisi var. İçməli suyu da kəndlinin həyatındə. Kənd mərkəzi, həkim ambulatoriyası müasir binalarda əhaliyə xidmət edir. Kənddə təhsilin vəziyyəti ilə də maraqlandıq. 2012-ci ildə məktəb üçün yeni bina tikilib istifadəyə verilib. Təhsilin keyfiyyəti getdikcə yüksəlir. Ötən il məktəbi bitirən məzunların hamısı tələbə adını qazanıb. Uğurlar məktəb kollektivini arxayınlaşdırmır. Çalışılır ki, məktəbi bitirən məzunların hamısı yüksək bal toplasın.

Kənddə işimizi yekunlaşdırmaq üzrəyik. Əkin-biçindən qayıdan kənd adamları iftar süfrəsi açmağa tələsirlər. Kənddə hökm sürən sakitlik, əmin-amanlıq insana bir rahatlıq verir. Dağların zirvəsindən kənd mənzərələrinin fotoşəkillərini çəkərkən uzaqdan qürurla dayanan əsgərlərimizi də gördük. Onlar yaxşı bilirlər ki, hər an ayıq-sayıq dayanmaq lazımdır. Düşmən hər an öz mənfur əməllərinə əl ata bilər. Postlarda növbə dəyişilir. Azərbaycan əsgəri sərhədlərimizi göz bəbəyi kimi qoruyur. Əl tətikdə, göz hədəfdə – əsgər Ləkətağda, sərhəddə möhkəm dayanıb. Sən rahat ol, Azərbaycan!

**Sara ƏZİMOVA**

# Muxtar respublikada taxıl biçini davam etdirilir

Muxtar respublikamızda üstün istiqamət verilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Hərtərəfli qayğı ilə əhatə olunan torpaq mülkiyyətçiləri, sahibkarlar taxılçılıqda qazanılan uğurları ilbəil artırırlar.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, 2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilib. Bunun da 29697,7 hektarı payızlıq, 6052 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 425,7 hektar çoxdur. Taxıl zəmilərinin 26274,1 hektarında buğda, 9475,6 hektarında isə arpa əkilib. Sahələrdə bol məhsul yetişdirilib. İyul ayının 14-dək olan məlumata görə, 26 min 617 hektar sahənin taxılı tədarük olunub. Hazırda taxıl biçini davam edir. Rayonlarda yaradılmış qərargahlar məhsul istehsalçılarının çətinliklərlə rastlaşmamaları üçün bütün lazımi tədbirləri həyata keçirirlər. Onu da qeyd edək ki, əkin sahələrində 84 kombayndan istifadə olunur.

**Taxıl biçini haqqında məlumat, hektarla**

| Şəhər və rayonlar | Ümumi əkin sahəsi | o cümlədən | | Biçilən sahə | o cümlədən | | Biçilən sahənin ümumi əkin sahəsinə nisbəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | | buğda | arpa | | buğda | arpa | |
| Naxçıvan şəhəri | 1229,1 | 1024,6 | 204,5 | 748,0 | 550,0 | 198,0 | 60,9 |
| Şərur rayonu | 9184,1 | 7313,8 | 1870,3 | 7015,0 | 5200,0 | 1815,0 | 76,4 |
| Babək rayonu | 10364,8 | 7777,8 | 2587,0 | 7430,0 | 5100,0 | 2330,0 | 71,7 |
| Ordubad rayonu | 2147,9 | 1307,7 | 840,2 | 2115,0 | 1295,0 | 820,0 | 98,5 |
| Culfa rayonu | 5085,6 | 4046,2 | 1039,4 | 4308,0 | 3310,0 | 998,0 | 84,7 |
| Kəngərli rayonu | 4277,0 | 2647,2 | 1629,8 | 3186,0 | 1592 | 1594,0 | 74,5 |
| Şahbuz rayonu | 1331,0 | 1010,3 | 320,7 | 200,0 | 80,0 | 120,0 | 15,0 |
| Sədərək rayonu | 2130,2 | 1146,5 | 983,7 | 1615,0 | 685,0 | 930,0 | 75,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **35749,7** | **26274,1** | **9475,6** | **26617,0** | **17812,0** | **8805,0** | **74,5** |

Taxılın məhsuldarlıq göstəricisi muxtar respublikanın şəhər və rayonları üzrə bir hektardan orta hesabla 20-31 sentner intervalında müşahidə olunmaqdadır. Əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri belə deməyə əsas verir ki, taxıl biçini itkiyə yol verilmədən mütəşəkkil qaydada başa çatdırılacaq.

# Naxçıvanda müalicə turizminin geniş imkanları var

***Həyatda sağlam yaşayaraq xoşbəxt olmağı kim arzulamaz ki? Söz yox ki, insan üçün ən qiymətli nemət olan sağlamlıq qədər onun qorunması da ən vacib qayğıdır. Sağlamlığın bərpa olunması üçün isə təbii üsullarla müalicə ən yaxşı vasitə olmuşdur. Yaşadığı yerlərdən yüzlərlə və minlərlə kilometr uzaqda mövcud olan şəfa qaynaqlarına çatmaq üçün insanların etdikləri səyahətlər müalicə və ya sağlamlıq turizmi adı altında hələ çox qədim dövrlərdən məlumdur. Naxçıvanın Duzdağ və Darıdağ kimi unikal təbii ehtiyatlarının istifadəsi ilə təşkil olunan müalicə turizmi də öz populyarlığını getdikcə artırmaqdadır.***

Qeyd etdiyimiz kimi, sağlamlıq turizminin qədim tarixi vardır və dini ziyarət turizmi kimi o da insanların ilk səyahətlərinin əsas motivlərindən olmuşdur. Hər iki halda məqsəd sağlamlığın bərpa olunmasıdır. Əgər dini turizm zamanı insanların qazancı ruhi-mənəvi zənginləşmə, uca Yaradana bir addım yaxınlaşma hissləri olursa, müalicə turizmi zamanı isə qazanılan fiziki cəhətdən sağlamlıq, gümrah bədən və yaradıcı iş qüvvəsidir. Ona görə də öz yaşadığı yerdən daha sərfəli, daha ucuz və ən başlıcası, daha etibarlı müalicə üçün uzaq coğrafiyalara, xarici ölkələrə üz tutanlar əksər hallarda öz ehtimallarında haqlı olurlar.

Müalicə turizmini ümumi halda üç qrupa bölmək mümkündür. Birinci halda xaricdə yerləşən müalicə müəssisələrinə klinik müalicə üçün, məsələn, əməliyyat olunmaq və ya xəstəxanada müalicə kursu almaq üçün



səyahət edənlər müalicə turistləri hesab olunur. Bu turizm növü hazırda geniş yayılmışdır. İkinci müalicə turizmi növü təbii imkanlar hesabına, həkim nəzarəti altında müəyyən xəstəliklərdən müalicə olunmaq, üçüncü sağlamlıq turizmi növü isə yalnız təbiətlə sıx ünsiyyətdə olub (məsələn, çimərlikdə qaralmaq və ya yaylaqda çadır qurub dincəlmək kimi) öz sağlamlığını möhkəmləndirmək və ya bərpa etməkdir. Göründüyü kimi, müalicə turizmi ilə məşğul olmaq üçün kifayət qədər geniş imkanlar





vardır. Naxçıvan Muxtar Respublikasında mövcud olan təbii şəraitdən və yaradılmış imkanlardan istifadə etməklə bu istiqamətdə yaxşı nəticələr əldə etmək mümkündür. Bu məqsədlə turizm mövsümünün bu qızğın çağında Duzdağ Fizioterapiya Mərkəzinə baş çəkib buradakı vəziyyətlə tanış olduq. Fizioterapiya Mərkəzində tətbiq olunan "Spleoterapiya" yolu ilə bronxial-astmalı xəstələrin müalicə edilməsi dünyanın müxtəlif yerlərindən bu məqsədlə gələn turistlər üçün çox yaxşı nəticələr verir.

Hələ keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzi geniş şöhrət qazanmışdı. Dünyada analoqu çox az olan belə müalicə üsulu mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı təşkil olunan müalicənin ideal nəticələr verməsinə şərait yaradır. Son dövrlərdə burada yaradılan müasir infrastruktur şəraiti, ixtisaslı həkim və texniki heyət və habelə təşkil olunan digər servislər istər müalicə üçün gələnlər, istərsə də onları müşayiət edənlər üçün hər cür imkanlar yaratmışdır. Nəticədə, Duzdağın möcüzəli müalicəvi xüsusiyyətləri həm ölkəmizdə, həm də bütün dünyada yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənlərin sağlamlığına qovuşmasına xidmət etməklə, əslində, bütün insanlığa xidmət etməkdədir.



Müalicə turizmi öz məzmununa görə sosial turizm kateqoriyasına aid olduğundan, başqa sözlə, insanlar müalicə-sağlamlıq üçün müəyyən vəsaitdən məcburi olaraq istifadə etdiklərindən onlara müəyyən güzəştlər edilməlidir. Qeyd olunmalıdır ki, bu müddəa Ümumdünya Turizm Təşkilatının da tövsiyələrində əks olunub, dövlətlərə və turizm təşkilatçılarına insanların sağlamlığı naminə turizm xidmətlərinin güzəştli qiymətlərlə təklif olunmasını nəzərdə tutur. Bu baxımdan Duzdağ Fizioterapiya Mərkəzində təkcə Azərbaycan vətəndaşları deyil, digər ölkələrin vətəndaşları üçün də sərfəli müalicə kursları təklif olunur. Mərkəzdə olarkən öyrəndik ki, burada hazırda 200 nəfər müalicə olunur ki, bu da mərkəzdəki tibbi xidmətlərə olan yüksək tələbatdan xəbər verir. Burada onların sağlamlığı və rahatlığı üçün hər cür şərait yaradılmış, 6 həkim, 23 orta tibb işçisi onlara xidmət göstərməkdədir. Mərkəzin xidmətlərindən istifadə edənlər üçün 1 servis avtobusu, 2 sanitar avtomobili ayrılmışdır. Mərkəzin baş həkimi Ruslan Süleymanovla söhbətimizdə öyrəndik ki, ötən illə müqayisədə mərkəzə müraciət edənlərin sayında 500 nəfərdən çox artım vardır. Onlar arasında dünyanın bir çox yerlərindən gələnlər, bütöv ailələr vardır. Keçən müddət ərzində Türkiyə, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya, İngiltərə və digər ölkələrin vətəndaşları Duzdağ Fizioterapiya Mərkəzinin xidmətlərindən istifadə etmiş, öz sağlamlıqlarına qovuşmuşlar. Mərkəzdə olarkən artıq axşamçağı olduğundan burada xeyli qələbəlik idi. Burada müalicə olunanların bir qismi həkimlərin qəbulunda gözləyir, bir qismi mərkəzdəki çay-kofe xidmətindən istifadə edir, bir qismi də mərkəzin girəcəyindən Naxçıvanın günbatımı mənzərəsini seyr edirdi. Söhbət zamanı məlum oldu ki, onların bir çoxu buraya müalicə üçün artıq neçənci dəfədir, gəlir. Burada Azərbaycanın müxtəlif yerlərindən – paytaxt Bakıdan, Tovuzdan, Ağcabədidən gəlmiş müalicə turistləri həm Naxçıvan şəhərində, həm də Duzdağ Fizioterapiya Mərkəzində gördüklərindən xoş təəssürat aldıqlarını bildirdilər. Qazaxıstanlı 13 yaşlı Almas Yanbiyakov isə Bakıda yaşayan qohumlarından Duzdağ haqqında xəbər tutduqlarını dedi. Burada müalicə olunanlarla söhbət zamanı bizimlə bərabər olan baş həkim Ruslan Süleymanov onu da qeyd etdi ki, burada dincəlib müalicə alan bütün insanlar, xüsusən qadın və uşaqların tələbatları üçün hər cür şərait yaradılmış, ciddi müalicə və yuxu rejimi tətbiq olunmuşdur. Çünki insanların yaşına və xəstəliyinin dərəcəsinə görə mərkəzdə qalmalı olduqları müddətdə hər günün öz əhəmiyyəti vardır. Bunu burada qaldıqları müddətdə sağlamlıqları yaxşılaşan insanlar da təsdiq etdilər.

***Naxçıvanın suyu, havası, duzu minbir dərdin dərmanıdır. Təbiətin bu torpağa bəxş etdiyi nemətlər isə Azərbaycan xalqının milli sərvətidir. Onlardan bu gün daha səmərəli istifadə olunması isə inkişafımızın tələbi, bütün insanlığın ehtiyacıdır. Duzdağın şəfaverici havası kimi.***

✍ **Əli CABBAROV**

# Gənc analara məsləhət

***Tanınmış rus alimi D.S.Stepanyuk tibb elmləri doktoru, professor V.İ.Murax və tibb elmləri namizədi A.V.Xapalyukun uşaqların sağlamlığı ilə bağlı fikirlərini toplayaraq "Müdrik tibb bilicilərinin gizli sirləri" adlı kitab nəşr etdirmişdir. Kitabda öz əksini tapan dəyərli fikirlərin gənc analar üçün faydalı olacağını nəzərə alaraq həmin məsləhətləri ixtisarla oxucularımıza təqdim edəcəyik.***

### *Südəmər uşaqlar niyə ağlayır və qışqırırlar?*

Südəmər uşaqlar aclığı, ağrını, ümumiyyətlə, narahatlıqlarını ağlayaraq və qışqıraraq bildirirlər. Təcrübəli ana bunun səbəbini asanlıqla başa düşür. Təcrübəsizlər isə öz ehtimalları ilə dolaşırlar ki, bəzən bu, uşağın ziyanına olur. Çox vaxt qidalandıqda belə, uşaqlar aclıqdan ağlayırlar. Bu halda ağlamalar öncə yüksək olur, sonra sakit, yazıq-yazıq, daha sonra isə üzüntülü obraz formasında baş verir. Əgər uşaqda çəki azalması da baş verirsə, aydındır ki, qida ona azlıq edir. Bəzən uşaqlar süd həddən artıq yağlı olanda da ağlayırlar. Belə ki, yağlı süd onlarda sancılar yaradır. Bu zaman ağlama ucadan və uzunmüddətli olur. Bu səbəbdən yağlı südü qaynanmış su ilə qatmaq lazımdır. Sancını isə bir qaşıq çobanyastığı və ya şüyüd toxumu dəmi verməklə aradan qaldırmaq mümkündür.

Uşaqlar qulaqları ağrıyanda da ucadan ağlayırlar. Bu, əsasən, soyuqdəymədən yaranır. Bu zaman qulağın ardındakı sümüyə toxunmaq ağrını daha da çoxaldar. Uşağı sakitləşdirmək üçün qulağına bitki yağına, yaxud qliserin və karbol turşusuna batırılmış pambıq qoymaq lazımdır.

Uşaqlar nəm və ləkələnmiş bezlərdə yatmağı xoşlamırlar. Onlar buna ağlamaqla etiraz edirlər. Bu ağlamalar yerində durmamaqla müşahidə olunur. Bu cür narazılıqdan doğan ağlama bezdirici formada özünü göstərir.

Uşaqları bit, birə və ağcaqanad dişləməsindən qorumaq üçün onların yatağına yovşan qoymaq məsləhətdir. Bu, həşəratları qovmaqda uğurlu vasitədir.

Beyin iltihablaşması zamanı çığırtılar qulaqdeşici olur. Xəstəliyin inkişaf etməsi ilə qusmalar, qıcolmalar baş verir, çığırtılar zəifləyir. Bu zaman təcili surətdə həkimə müraciət edilməlidir.

Boğaz ağrısı və laringit zamanı da çığırtılar zəif, xırıltılı olur.

Nəhayət, uşaqlar həmçinin xasiyyətlə əlaqədar ağlayır və qışqırırlar. Bu, əsasən, qucağa öyrənmiş uşaqlarda müşahidə olunur. Bu zaman uşaq qarşısında ona yazığı gələn doğma üz görərsə, o, öz istəyinə çatana kimi ağlamağa davam edəcək. Yad və laqeyd insanın qarşısında isə ağlamayacaq. Buradan belə bir nəticə çıxır: körpəlikdən sizdən də çoxbilmiş və "qəddar" olan uşaqların istəklərini tərbiyə etməyə çalışın.

### *Balaca uşaqlara nələri etmək olmaz?*

Məsləhət deyil ki, uşağı yedirtdikdən sonra onu sol çiyni üstdə uzadasınız. Belə ki, körpə uşağın qaraciyəri onun qarnının böyük hissəsini əhatə edir. Sol çiyin üstündə yatırmaq qaraciyərin mədəyə təzyiq edərək sıxılmasına, nəticə etibarilə, narahatlıq, gəyirmə və qusma yaranmasına səbəb olur. Buna görə də uşağı sağ çiyni üstdə uzatmaq lazımdır.

Uşağı doğuşdan ilk 2-3 həftə sonrakı müddətdə işıqda saxlamayın. Yataq otağını qaranlıq edin; işıq onlara əziyyət verir və onlarda göz xəstəliyi yaradır. Uşağın qollarının harmonik inkişafı üçün onları hər iki əldə daşımaq lazımdır. Böyüyən uşağa əmzikdən istifadəyə və ya barmağını sormağa icazə verilməməlidir. Bu, onlarda dişlərin və dodaqların yanlış formalaşmasına səbəb olur.

Uşağı tez yeriməyə məcbur etmək lazım deyil: əks təqdirdə, bərkiməmiş ayaqlarda əyrilik ola bilər.

Heç bir halda körpə uşağa onu qucağında saxlayan anaya və ya başqasına vurmasına icazə vermək olmaz. Özünüzün də bu hala gülməsi yolverilməzdir, çünki bu hal uşağı həvəsləndirir.

Bəzi uşaqlar həşəratlara əziyyət verməyə, onları iplə bağlamağa çalışırlar. Gələcəkdə uşaqlarda əzab vermək həvəsi yaradacaq bu vəziyyətə icazə verilməməlidir.

Yeni doğulmuş körpəyə qulluq çətin işdir. Lakin uşağın gələcək inkişafı və sağlamlığı bu qulluqdan asılıdır. Buna görə də həkimin bütün məsləhətlərini yerinə yetirmək lazımdır: uşağı təmiz saxlamaq, təmiz havada gəzdirmək və sair. Uşaqlarda tez-tez müşahidə olunan dəri bişməsinin qarşısını almaq üçün dərini hər gün su və ya zəif yod məhlulu ilə yumaq (bir stəkan suya 1-2 damcı yod), sonra sürtməmək şərtilə yaxşı qurutmaq lazımdır.

*Ardı var*

# Aztəminatlı ailəyə baş çəkilmişdir

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Aztəminatlı ailələrə ünvanlı sosial yardımların verilməsindən başlamış çoxuşaqlı ailələrin, məhdud fiziki imkanlıların, tənha yaşayan ahılların həyat şəraitinin yaxşılaşdırılmasına qədər bütün sosial müdafiə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Şahbuz rayonunun Keçili kəndində yaşayan aztəminatlı, II qrup əlil Natiq Məmmədovun ailəsinə baş çəkilmişdir. Adıçəkilən təşkilatların əməkdaşları aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanmış, ailə üzvlərini tibbi müayinədən keçirərək onlara soyuducu, geyim dəstləri və ərzaq payı vermişlər.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***


***İtmişdir***

Novruzov Yaqub Abbas oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 20.11.2009-cu ildə verilmiş 1209006094 qeydiyyat nömrəli MH-0014456 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz şəhər sakini Quliyeva Elmira Məmməd qızının adına olan JN-192B inventar nömrəli, 10504018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Hacıyev Xəlil İbrahim oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Yuxarı Uzunoba kənd sakini Musayev Azər Abazər oğlunun adına olan JN-30A, 10311048 kodlu həyətyanı sahənin qaiməsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından Əlövsət Quliyev, Kamil Əliyev, Səftər Allahverdiyev və Vəli Salmanov iş yoldaşları Vahid Əsgərova, anası

**BİLQEYİS XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 609**